# ülfat

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-ci İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 27 YANVAR 2022-ci il / № 03 (1270)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU


## RƏSMİ XRONİKA



### AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV

(yanvarın 25-də)

...Ukrayna Prezidenti Volodimir Zelenskiyə zəng edib.

...İkinci Dünya müharibəsinin iştirakçısı, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarovanın 100 illiyi münasibətilə ona Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə "İstiqlal" ordenini təqdim edib.

# "Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranmışdır"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib.**

**AZƏRTAC xəbər verir ki, iranlı naziri salamlayan Prezident İlham Əliyev dedi:**

- Hörmətli cənab nazir, hörmətli İran nümayəndə heyətinin üzvləri, Azərbaycana xoş gəlmisiniz. Mən çox şadam ki, sizin Azərbaycana səfəriniz azad edilmiş torpaqlardan başladı. Siz dünən İrandan birbaşa Füzuliyə, Füzuli Beynəlxalq Hava Limanına təyyarə ilə gəlmisiniz, həm Füzulidə, həm Zəngilanda olmusunuz və biz bunu çox yüksək qiymətləndiririk.

Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranmışdır. Müharibədən sonra İran-Azərbaycan əlaqələri bu istiqamətdə daha da geniş vüsət almışdır. Regional əməkdaşlığın yaradılması üçün hazırda çox ümidverici 3+3 əməkdaşlıq platforması yaradılmışdır. Artıq birinci görüş keçirildi. Əminəm ki, bu görüşlər müntəzəm olaraq keçiriləcək və region ölkələrinin maraqlarını təmin edəcək. Eyni zamanda, əminəm ki, yaxın gələcəkdə İran şirkətləri azad edilmiş torpaqlarda fəal işə başlayacaqlar. İqtisadiyyat Nazirliyinə müvafiq göstərişlər verildi, İran tərəfi ilə ilkin danışıqlar aparıldı və indi konkret nəticələr gözləyirik.

**Siz azad edilmiş torpaqlarda olan dağıntıları dünən öz gözlərinizlə görmüsünüz. Ermənistan işğal dövründə bizim bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib. Ona görə bu böyük ərazidə - 10 min kvadratkilometrdən böyük olan ərazidə indi quruculuq işlərinə start verildi, amma gördüyünüz kimi, bu, çox genişmiqyaslı bir işdir. Yüzlərlə şəhər və kənd demək olar ki, yer üzündən silinib. Bərpa işlərinə start verildi və dediyim kimi, ümid edirəm ki, İran şirkətləri bu işlərdə fəal iştirak edəcəklər.**

Siz dünən, eyni zamanda, Zəngəzur dəhlizinin yaradılması üçün aparılan işlərlə də tanış olmusunuz. Həm avtomobil yolu, həm dəmir yolu artıq uğurla inşa edilir və Ermənistandan da biz müsbət xəbərlər alırıq. Ermənistan öz tərəfində də bu işlərə start verməyi planlaşdırır.

Bir sözlə, ümid edirəm ki, müharibədən sonrakı dövr bütün region üçün yeni imkanlar açacaq. Əlbəttə ki, İran İslam Respublikasının bu işlərə töhfəsi də çox önəmlidir.

**Digər məsələlərə gəldikdə, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması, Xudafərin Su Elektrik stansiyalarının inşa edilməsi, Astaraçay üzərində körpünün inşa edilməsi - bütün bu və digər məsələlər dünən Şahin Mustafayevlə müzakirə olunub və hökumətlərarası komissiyanın işində, əlbəttə ki, prioritetlər sırasında olacaq.**

Onu da bildirməliyəm ki, noyabrın sonlarında İran İslam Respublikasının Prezidenti cənab Rəisi ilə keçirdiyim görüş çox uğurlu, əhəmiyyətli idi və İran-Azərbaycan əlaqələri üçün yeni imkanlar açır. Bu, əlaqələrimizin, dostluq, qardaşlıq əlaqələrimizin yeni səhifəsinin açılması deməkdir.

**Bir daha xoş gəlmisiniz.**

**İranlı nazir Rüstəm Qasimi dedi:**

**- Allahın adı ilə. Cənab Prezident, mən Sizi salamlayıram və Sizə, Azərbaycan xalqına cansağlığı, Azərbaycan dövlətinə uğurlar arzu edirəm. İran İslam Respublikasının Prezidenti cənab doktor Rəisinin səmimi salamlarını Sizə çatdırıram.**

İran dövləti və İran xalqı adından şəxsən Sizə, Azərbaycan dövlətinə, Azərbaycan xalqına ərazilərin geri qaytarılmasında əldə etdiyiniz uğurlar və bu müharibədə qazandığınız Qələbə münasibətilə təbrik çatdırıram. Qeyd etdiyiniz kimi, Sizinlə cənab Prezident Rəisi arasında keçirilən görüş iki ölkə münasibətlərində yeni bir səhifə yaradacaq.

Biz dünən azad edilmiş əraziləri gördük, orada aparılan quruculuq və yenidənqurma işləri ilə yerində tanış olduq. Ümid edirəm ki, bu gün cənab Şahin Mustafayevlə və eləcə də Azərbaycan Respublikasının digər nazirləri ilə keçirəcəyim görüşlərdə iki ölkə arasındakı əlaqələr və müştərək layihələr barədə bir daha fikir mübadiləsi aparacağıq.

Onüçüncü hökumət, yəni, cənab İbrahim Rəisinin prezidentliyi dövründə dövlətimiz bütün qonşu ölkələrlə, xüsusilə də mədəni, tarixi və ictimai bağları daha çox olan Azərbaycan Respublikası dövləti və xalqı ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədir.

***

**Prezident İlham Əliyev İran dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.**

**Söhbət zamanı ikitərəfli əlaqələrə dair müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparıldı.**

# Şəhidlər xiyabanı ziyarət olunub

**Sovet imperiyasının Bakıda törətdiyi qanlı 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in digər rəhbər şəxsləri yanvarın 20-də - Ümumxalq Hüzn Günü Şəhidlər xiyabanını ziyarət ediblər.**

**Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsi hörmət və ehtiramla yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.**



## S.Möhbalıyev: *"20 Yanvar xalqımızın qəhrəmanlıq dastanıdır"*

BAX SƏHİFƏ: 2

## Gənclərə göstərilən diqqət və qayğıda

*hökumətlə bərabər, həmkarlar ittifaqları da əlindən gələn dəstəyi əsirgəmir*

BAX SƏHİFƏ: 3

## *Fatma Səttarovanın 100 illik yubileyi qeyd edilib*

BAX SƏHİFƏ: 3



## MÜKAFATLAR TƏQDİM OLUNDU

BAX SƏHİFƏ: 4

# COVID-19 infeksiyasına son sutkada 3192 yoluxma faktı qeydə alınıb




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 3192 yoluxma faktı qeydə alınıb, 1259 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 18 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 640 min 148 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 619 min 50 nəfər müalicə olunaraq sağalıb, 8 min 650 nəfər vəfat edib. Aktiv xəstə sayı 12 min 448 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 min 544, bu günə qədər isə ümumilikdə 6 milyon 94 min 493 test icra olunub.**

## *Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı təşkilatları 20 Yanvar Şəhidlərini ehtiramla andılar*

BAX SƏHİFƏ: 2

## Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 4

## Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

## Beynəlxalq

*İnflyasiya insanların həyat səviyyəsinə təsir edir*

BAX SƏHİFƏ: 3



**“Azərbaycan xalqının minilliklərə söykənən qədim tarixinin mühüm səhifələrindən biri də əsarətə, işğala qarşı usanmadan mübarizə aparmasıdır. Tarixi faktlar sübut edir ki, böyük dövlətlər, nəhəng imperiyalar yaratmış Azərbaycan xalqı tarixin müəyyən mərhələlərində sərt sınaqlarla üzləşərək işğala məruz qalmışdırsa da, azadlıq mücadiləsini sonacan, məqsədinə nail oluncaya qədər davam etdirmişdir. Bu yolda bütün təzyiqləri, maneələri şərəflə aşmışdır. Xalqımızın azadlıq naminə atdığı hər bir addım bizim qəhrəmanlıq salnaməmizdir və xalqımızın hər bir üzvü tarxin bu səhifələrini qürurla vərəqləyir”.**

# S.Möhbalıyev: “20 Yanvar xalqımızın qəhrəmanlıq dastanıdır”

**Bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

Onun sözlərinə görə, sovet imperiyasına qarşı xalqımızın mübarizəsi də tarixə qızıl hərflərlə yazılmış və gələcək nəsillərə dəyərli örnək olmuş şanlı azadlıq yolumuzdur: “Bu yolda xalqımız çox məşəqqətlərdən keçdi, repressiyalara, təzyiqlərə məruz qaldı, amma bir an da olsa öz ali amalından əl çəkmədi, mübarizəsini ləyaqətlə davam etdirdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə paytaxt Bakıda imperiyanın ədalətsiz siyasətinə etiraz edən əliyalın Azərbaycan xalqına qanlı divan tutuldu. Silahlı müdaxilə rayonlarda da baş verdi. Ümumilikdə 147 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Törədilən hadisələr sözdə, demokratiyadan dəm vuran totalitar rejimin iç üzünü bir daha göstərdi. Bu, insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biri idi. İmperiya Azərbaycan xalqının birliyini pozmaq, azadlıq mübarizəsini boğmaq, milli ruhunu öldürmək, müstəqilliyə gedən yolunu bağlamaq niyyətində idi. Amma xalqımız ona qarşı törədilən qanlı qırğından qorxmadı, sarsılmadı, milli kimliyini, ləyaqətini qorumaq üçün can verməyə hazır olduğunu göstərdi. 20 Yanvar ümumxalq faciəsi olmaqla yanaşı, həm də müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli azadlıq hərəkatının zirvəsi kimi tariximizdə öz yerini aldı. Bu, dünya tarixində əsarətə qarşı ən şanlı mübarizə idi”.

**“Baş verən hadisənin səhəri günü - 1990-cı il yanvarın 21-də xalqımızın dahi oğlu, Vətənini və xalqını böyük sevgi ilə sevən, bütün ömrünü xalqının xoşbəxt yaşamasına xərcləyən, bu missiyasını özünə müqqədəs borc bilən ulu öndər Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəldi. Azərbaycanda törədilən qanlı hadisəni bütün dünyaya çatdırdı, sovet rejiminin fitnəkar siyasətini qətiyyətlə və kəskin şəkildə tənqid etdi. Cəsarətli bəyanatları ilə əliyalın xalqa qarşı silah işlədilməsini hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv adlandırdı. Bu, o dövr üçün nə qədər təhlükəli açıqlama olsa da, Ulu Öndər bunu heç nədən qorxmayaraq böyük fədakarlıqla etdi. Xalqı ilə həmrəyliyini, hər zaman onunla birlikdə olduğunu göstərdi”, - deyə Milli Məclisin deputatı bildirib.**

“Şəhidlərimiz paytaxt Bakının ən uca zirvəsində uğrunda can verdiyi torpağa tapşırıldı. Törədilən qanlı hadisənin ardınca dəfn mərasiminə yüzminlərlə insanın qatılması xalqımızın Vətənin azadlığı yolunda heç nədən qorxmadığını, mətinliyini, şirin canından keçən şəhidlərimizə olan müqəddəs münasibətini nümayiş etdirdi. Xalqımızın sonrakı başqa mübariz davranışları da artıq imperiyaya göstərdi ki, Azərbaycanın müstəqillik mübarizəsinin qarşısında duruş gətirə bilməyəcək, bu, qarşısıalnmaz bir mücadilədir”, - deyərək AHİK sədri vurğulayıb.

**S.Möhbalıyev bildirib ki, ümumilikdə 20 Yanvar hadisəsi milli kimliyimizin formalaşmasında, dövlət müstəqilliyimizin bərpa edilməsində dönüş nöqtəsi oldu: “Milli azadlıq hərəkatı siyasi reallığa çevrildi, dönməz xarakter aldı. Bundan sonra xalq artıq öz gələcəyini müstəqil Azərbaycanda, suveren hüquqlarına sahib olmaqda, sərbəst və azad yaşamaqda gördü. Bütün çətinliklərə rəğmən, nəhayət, ən ali məqsədinə - müstəqilliyinə nail oldu. 20 Yanvar şəhidləri öz qanları ilə azadlıq yolumuza sönməz işıq saldı, mübaizlik məktəbi yaratdı, həmrəylik nümunəsini gələcək nəsillərə yadigar qoydu. Göstərdilər ki, bütün uğurlarımızın kökündə xalqımızın sarsılmaz birliyi dayanır. Xalqımız mübariz ruhunu davam etdirərək 30 ilə yaxın bir müddət ərzində Ermənistan işğalı altında olan Şərqi Zəngəzuru və Qarabağı müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin misilsiz sərkərdəlik məharəti, yenilməz Ordumuzun qəhrəmanlığı sayəsində azad etdi. Müzəffər bir xalq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi”.**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# Ümummilli Liderin əvəzsiz mənəvi dəstəyi



**20 Yanvar hadisələrinin 32-ci ildönümü günü Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci Həmkarlar İttifaqı Komitəsinin üzvləri metronun “20 Yanvar” stansiyasının yaxınlığında şəhidlərin xatirəsinə ucaldılmış memorial abidə kompleksi qarşısında təşkil olunmuş matəm mitinqində iştirak etmiş, abidə önünə əklil və gül dəstələri qoymuşlar.**

Həmçinin “20 Yanvar” faciəsinin 32-ci ildönümü ilə bağlı “Microsoft Teams” platforması üzərindən onlayn formatda tədbir keçirmişlər. Kollecin müəllim heyətinin və tələbələrin iştirakı ilə şəhidlərə həsr olunmuş anım tədbirində 20 Yanvar şəhidlərinin timsalında bütün şəhidlərimizin ruhu birdəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edən kollecin HİK sədri Aygün Musayeva bildirmişdir ki, 1990-cı ilin yanvar ayının 20-si Azərbaycan xalqının tarixinin həm faciəli, həm də qəhrəmanlıq səhifəsidir. Həmin gün ən müasir silahlarla silahlanmış Sovet Ordusu dəstələri Azərbaycanın paytaxtı Bakı şəhərinə girmiş, xalqın azadlıq mübarizəsinin qarşısını almaq üçün qanlı cinayət hadisəsi törətmişlər. Lakin xalq öz azadlıq mübarizəsindən geri dönmədi.

Sovet rəhbərliyinin xalqın iradəsini, milli azadlıq hərəkatını boğmaq niyyəti baş tutmayıb, bu yolda şəhidlər verən xalqımız milli azadlıq mübarizəsini davam etdirərək müstəqilliyə qovuşub. Sədr bildirdi ki, ümummilli lider Heydər Əliyev faciədən dərhal sonra - yanvarın 21-də ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etiraz səsini ucaltdı, faciənin bütün günahkarlarının cəzalandırılmasını tələb etdi. Bu addım xalqımıza azadlıq mübarizəsini daha inamla davam etdirmək baxımından böyük stimul, əvəzsiz mənəvi dəstək oldu.

**Sonda tələbələr şəhidlərə həsr olunmuş şeirlər söylədilər, “20 Yanvar hüzn və qürur günümüzdür” adlı slayd nümayiş etdirildi.**

# Azadlığımıza qanı ilə imza atanlar



**Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Gəncə Şəhər Şurası 20 Yanvar-Ümumxalq Hüzn Günü ilə əlaqədar tədbir keçirib. Tədbirdə əvvəlcə Azərbaycanın müstəqilliyi uğrunda canından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.**

Sonra 20 Yanvar hadisələrinin Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsində mühüm tarix olduğu vurğulanıb. Həmçinin müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın keçdiyi yol, əldə etdiyi iqtisadi yüksəliş, Ermənistanın ölkəmizə hərbi təcavüzü, 30 illik işğal və 44 günlük Vətən müharibəsi barəsində də iştirakçılar məlumatlandırılıb.

**Tədbirin sonunda Gəncə şəhər səhiyyə müəssisələrində çalışan 23 şəhidin ailə üzvlərinə maddi yardım verilib, onlara qiymətli hədiyyələr, ərzaq məhsulları təqdim olunub.**

# XALQ BİRLİYİNİN MÖHTƏŞƏM NÜMUNƏSİ



**20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar Metropoliten İşçiləri Həmkarlar İttifaqında (MİHİ) görüş keçirilib. 1990-cı il yanvarın 19-dan 20-nə keçən o müdhiş gecədə şəhid olmuş metro inşaatçısı Əflatun Kazımovun oğlu Surac və yaralanmış Mansur Qocayev tədbir iştirakçıları qarşısında çıxış etmişlər. Sovet Ordusunun xalqımıza qarşı törətdiyi vəhşiliyi ürək ağrısı ilə xatırlamışlar. “Heç bəlkə iki düşmən ordusu üz-üzə gələndə belə vəhşicəsinə qanlar tökmür”, - dedilər. Bakı cəhənnəmə döndərilmişdi. Küçələrdə hərəkət edən hər bir canlıya, maşına atəş açılırdı.**

MİHİ sədri Arif Mərdanov o gecəni, bütün dəhşətlərinə baxmayaraq, həm də Azərbaycan xalqının əzm, iradə və qətiyyətinin təzahürü, azadlığa aparan yolun başlanğıcı adlandırdı. 20 Yanvar şəhidlərinin, o cümlədən metropolitençi Əflatun Kazımov və İlqar Qarayevin əbədi olaraq xatırlanacaqlarını qeyd etdi.

Dedi ki, metropoliten kollektivi daim cəmiyyətin çağırışlarına səs verib. Kollektivimiz həmin gecə heç nədən qorxmadan, çəkinmədən fəaliyyət göstərdi. İnsanların harayına yetişdi.

**Görüşdə çıxış edən digər metropolitençilər bildirdilər ki, 20 Yanvar xalq birliyinin möhtəşəm nümunəsi idi. Bu birlik 2020-ci il sentyabr ayında başlanan və 44 gün davam edən Vətən müharibəsində də nümayiş olundu. Fərq bircə onda idi ki, 1990-cı il aksiyalarında xalqın ətrafında birləşə biləcəyi lider yox idi. Vətən müharibəsi isə ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparıldı və qələbə ilə başa çatdı.**

# Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı təşkilatları 20 Yanvar şəhidlərini ehtiramla andılar



***

**20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar DİİXİ Hİ Xocavənd Rayon Komitəsinin üzvləri Yeni Xocavənd qəsəbəsindəki abidə kompleksini ziyarət edib, önünə tər çiçəklər düzüblər. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsinə ehtiramlarını bildiriblər.**



**Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı (DİİXİHİ) Şəmkir Rayon Komitəsi 20 Yanvar günü münasibətilə üç nəfər şəhid övladının əməkhaqqı kartına birdəfəlik pul vəsaiti köçürüb.**

20 Yanvar şəhidlərinin xatirə kompleksi çoxsaylı üzvlərin iştirakı ilə ziyarət olunub və şəhidlərimizin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzülüb.

***

**DİİXİ Hİ Kəlbəcər Rayon Komitəsi aparatı, Rəyasət Heyətinin üzvləri, ilk həmkarlar ittifaqı təşkilatlarının sədrləri və fəalları 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə əlaqədar ümumrayon tədbirində iştirak ediblər.**

***

**DİİXİ Hİ Ağcabədi Rayon Komitəsinin əməkdaşları və fəalları 20 Yanvar faciəsi günündə Şəhidlər xiyabanını ziyarət ediblər.**

# Müstəqilliyə aparan yolun başlanğıcı



**“20 Yanvar hadisələri hər birimizin yaddaşında xalqımızı müstəqilliyə aparan mübarizlik yolu olaraq qaldı. Həmin mübarizədə igid oğullarımız və qızlarımız şəhidlik zirvəsinə ucaldılar. Bu hadisələri yaşayaraq vətənpərvərlik ruhunda tərbiyə olunan gənc nəsil Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında silaha sarılaraq 30 illik həsrətə son qoydu və işğal olunmuş torpaqlarımızı geri qaytardı”.**

Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Şəki Rayon Komitəsinin sədri Ziyafət Xasiyeva müxbirimizə bildirdi ki, bütün məktəblərimizdə bu fikirlər şagirdlərimizə təlqin olunur. Xalqımızın Zəfər, faciə tarixləri gənc nəslin yaddaşına ötürülür. Biz təkcə deməklə, öyrətməklə kifayətlənmirik. Əyani tədbirlər keçirməklə şagirdlərin bu hadisələrə, öz yanaşmasını öz fikrini formalaşdırırıq. Belə tədbirlərdən biri də, Tədbirlər Planımıza uyğun olaraq, şəhər təhsil şöbəsi və gənclər və idman idarəsi ilə birlikdə ümumtəhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında “20 Yanvar - müstəqilliyə aparan yol” mövzusunda keçirdiyimiz inşa-yazı müsabiqəsidir. Bundan əlavə, yanvarın 20-də şəhidlərin məzarları ziyarət edilmişdir. Həmçinin təhsil müəssisələrində çalışan şəhid ailələrinə maddi və mənəvi dəstək göstərilmişdir.





# Fatma Səttarovanın 100 illik yubileyi qeyd edilib

**Yanvarın 25-də Respublika Veteranları Təşkilatında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, İkinci Dünya müharibəsinin iştirakçısı, Prezident təqaüdçüsü Fatma Səttarovanın anadan olmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib.**

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov tədbirdə çıxış edərək Fatma Səttarovanın keçdiyi çətin və şərəfli ömür yolundan danışıb. Deyib ki, İkinci Dünya müharibəsinin unudulmaz, hər zaman böyük qayğı ilə yad edilən veteranlarından olan Fatma Səttarovanı bütün Azərbaycan xalqı tanıyır və sevir.

Qeyd olunub ki, Prezident İlham Əliyev İkinci Dünya müharibəsi iştirakçılarına daim diqqət və qayğı ilə yanaşır, onların sosial məsələlərinin və problemlərinin həllinə çalışır. Fatma Səttarovanın dövlətimizin başçısı tərəfindən "İstiqlal" ordeni ilə təltif edilməsi və Respublika Veteranlar Təşkilatında 100 illik yubileyinin təntənəli şəkildə qeyd olunması da bu diqqət və qayğının bariz nümunəsidir.

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədr müavini Cavanşir Alxasov çıxış edərək F.Səttarovanı AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin adından təbrik edib. Nəzərə çatdırıb ki, onun respublikanın ictimai həyatında və həmkarlar ittifaqı işində səmərəli fəaliyyəti yüksək qiymətləndirilib. Sonra C.Alxasov F.Səttarovaya AHİK-in "Azərbaycan Həmkarlar İttifaqları- 115 il" yubiley döş nişanını təqdim edib.**

Müxtəlif dövlət qurumlarının rəhbər şəxslərinin, veteranların, ziyalıların iştirak etdikləri tədbirdə Fatma Səttarovanın 100 illik ömür yolundan bəhs edən Azərbaycan Televiziyasının çəkdiyi "Həyat yolu" filmi nümayiş olunub.

Tədbirdə digər çıxış edənlər də Fatma Səttarovaya təbriklərini və ən xoş arzularını çatdırıb, ona fəaliyyətində uğurlar arzulayıblar.

**Yubilyar və nəvəsi göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına, iştirakçılara minnətdarlığını bildirib.**

# Xaricdə təhsil almış həkim mütəxəssislər işə cəlb olunacaq

**Mətbuatda da verilən məlumatlara görə, "Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi"nin (TƏBİB) tabeliyindəki tibb müəssisələrində kadr çatışmazlığının aradan qaldırılması məqsədilə Avropa İttifaqı ölkələri, ABŞ və Türkiyə Cümhuriyyətində təhsil almış həkim-mütəxəssislərin tibb müəssisələrində işə cəlb olunması nəzərdə tutulur. Cəlb olunacaq həkim-mütəxəssislər eyni zamanda xarici təcrübənin, müasir müayinə-müalicə metodlarının tibb müəssisələrində çalışan yerli kadrlara öyrədilməsini, həkimlərin nəzəri bilik və praktik vərdişlərinin yaxşılaşdırılmasını həyata keçirəcəklər.**



**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədovanın** dediyinə görə, Bakı, Gəncə və Sumqayıt şəhərlərində yerləşən TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrinə və ölkə üzrə tibbi ərazi bölmələri mərkəzlərinə cərrahi, radioloji, terapevtik və pediratrik profilli ixtisaslar üzrə ehtiyac duyulan həkim-mütəxəssislər haqqında məlumat təqdim etmələri barədə müraciət olunub.

Proqram üzrə müraciət edən və ya tibb müəssisələri tərəfindən təqdim olunan həkim-mütəxəssislərin işə qəbulu Agentliyin təsis etdiyi komissiya tərəfindən müsahibə nəticəsində aparılacaq.

Proqram çərçivəsində hər il üzrə prioritet ərazilərdəki tibb müəssisələrinin hər birinə 10 nəfərdən çox olmamaqla, ümumilikdə 100 nəfər həkim-mütəxəssisin (cərrahi və radiloji profilli ixtisaslar üzrə 60 nəfər, terapevtik və pediatrik profilli ixtisaslar üzrə isə 40 nəfər olmaqla) cəlb edilməsi nəzərdə tutulur.

Cərrahi və radioloji profilli ixtisaslar üzrə həkim-mütəxəssislərin həvəsləndirici əlavələrinin məbləği 6500,0 manatdan, terapevtik və pediatrik profilli ixtisaslar üzrə isə 5000,0 manatdan az olmamaq şərtilə müəyyən olunur.

**Məsələn, terapevtik və pediatrik profilli ixtisaslar üzrə çalışan həkimin aylıq vəzifə maaşı Vahid Tarif Cədvəlinə uyğun olaraq 9-13-cü dərəcələr arası 415-487 manat təşkil edir. Əlavə olaraq 5000 manat həvəsləndirici əlavə aldıqda ümumi məbləğ 5415-5487 manat arası təşkil edir.**

Cərrahi və radioloji profilli ixtisaslar üzrə çalışan həkimin aylıq vəzifə maaşı Vahid Tarif Cədvəlinə uyğun olaraq 11-15 -ci dərəcələr arası 450-528 manat təşkil edir. Əlavə olaraq 6500 manat həvəsləndirici əlavə aldıqda ümumi məbləğ 6950-7028 manat arası təşkil edir.

**Proqramın maliyyələşdirilməsi icbari tibbi sığorta fondunun 2022-ci il üzrə büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.**

**Gülöyşə MƏMMƏDLİ**

**2 Fevral Gənclər Günüdür**

# Gənclərə göstərilən diqqət və qayğıda

## hökumətlə bərabər, həmkarlar ittifaqları da əlindən gələn dəstəyi əsirgəmir

**Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan gənclərə göstərilən böyük diqqət və qayğının nəticəsidir. Bu qayğıda hökumətlə bərabər, həmkarlar ittifaqları da əlindən gələn dəstəyi əsirgəmir. Torpaqlarımızın azadlığı uğrunda gedən haqlı müharibəmizdə gənclərimizin göstərdiyi rəşadət bunu bir daha sübut etdi ki, dövlət, xalq, ordu birliyi nələrə qadirdir.**




AHİK-in gənclər siyasətinin əsas vəzifəsi işləyən və təhsil alan gənclərin hüquqlarının müdafiəsi, işəgötürənlər tərəfindən gənclərin hüquqlarına riayət olunması, gənclərin həmkarlar ittifaqı sıralarına cəlb olunması və fəalların sayının bilavasitə gənclərin hesabına artırmasıdır. Biz bunun üçün nə edirik? AHİK-in dəstəyi ilə hər il yay aylarında gənc həmkarlar ittifaqı liderlərinin forumları keçirilir. Həmkarlar ittifaqlarının rəhbər strukturlarında gənclərin təmsil olunmasına nail olmaq üçün gənclərdən ibarət layiqli kadr ehtiyatının formalaşması hər zaman diqqət mərkəzimizdədir. Bunun üçün hər il Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında (AƏSMA) gənc üzvlər üçün maarifləndirmə kursları təşkil olunur. İl ərzində 100-130 gənc bu kurslarda öz bilik və bacarıqlarını təkmilləşdirir. Həmçinin ali və orta təhsil müəssisələrində əlaçı tələbə-gənclər üçün adlı təqaüdlər təsis edilir və onlar mükafatlandırılır.

AHİK-in Gənclər Şurası olaraq üzv olan gənclərin problemlərini daimi dinləyir, ideya və təkliflərini dəstəkləyir, beynəlxalq və milli səviyyəli tədbirlərdə iştiraklarına nail olmağa çalışırıq. Həmçinin Şura tərəfindən mütəmadi olaraq iqtisadi və sosial sahələrdə əmək şərtləri və məşğulluq məsələlərinin daha da yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər həyata keçirilir. Burada xarici həmkarlar ittifaqlarının müsbət təcrübəsindən də geniş istifadə olunur. Qeyri-stabil, özəl, qeyri-formal, müvəqqəti iş sahələrində çalışan gənclərin istehsal fəaliyyətlərinin leqallaşdırılması üçün bütün imkanlardan istifadə edirik.

**Həmkarlar ittifaqı üzvlərinin 22.2 faizi (29 yaşadək) gənclərdir. Əlavə olaraq qeyd edim ki, gənc Hİ üzvlərimizin 48%-ni qızlar, 52%-ni isə oğlanlar təşkil edir. Hazırda 1804 nəfər gənc HİK sədrlərimiz var.**

AHİK gənclərin ixtisaslı kadr kimi hazırlığı işinə töhfə vermək üçün, həmçinin həmkarlar ittifaqı üzvlüyünə motivasiyanın gücləndirilməsi məqsədilə "İlin peşəkar gənci" fəxri adını təsis edib. Deməк olar ki, hər il öz peşəkarlığı ilə həmkarlar ittifaqının fəaliyyətində fərqlənən gənclər qiymətləndirilir. İndiyə kimi 27 sahə həmkarlar ittifaqı təşkilatından 300 nəfərdən çox gənc bu fəxri ada layiq görülüb.

**Gənclərin məşğulluq problemi qlobal xarakter daşıyır. Dünyada əmək bazarında köklü dəyişikliklər baş verir. İş sisteminin avtomatlaşdırılması, robotlaşdırma və süni intellekt müəssisələri, şirkətləri və iş yerlərini hədsiz dərəcədə dəyişdirir. İşçilərdən gözləntilər də eyni şəkildə dəyişir. Uyğun kadrların seçilməsindəki güclü rəqabət kimi bu dəyişikliklərin sürəti də artır: beş il əvvəl uyğun olan bacarıqlar bu gün tələb olunmur. Bacarıqların, biliklərin gündəmin istəyinə uyğun təkmilləşdirilməsində, gənclərin məşğulluğunun təmin olunması məsələsində həmkarlar ittifaqları nə işlər görür? Həmkarlar ittifaqlarının qanunvericilik təşəbbüsü irəli sürmək hüququna malik olmamasına baxmayaraq, AHİK ölkədə sosial və əmək münasibətlərinin tənzimlənməsinə təsir göstərmək rıçaqlarından maksimum istifadə edir. Əmək, sosialyönümlü qanunvericilik sənədlərinin, qaydaların hazırlama prosesində fəal şəkildə iştirak edir, təkliflər irəli sürür. Yaxşı haldır ki, bu təkliflərin əksəriyyəti qəbul olunur. Qeyd edim ki, Baş Kollektiv Sazişdə gənclərin əmək şəraitinin yaxşılaşdırılması və həyat səviyyəsinin yüksəldilməsi, həmçinin tələbə və şagirdlərin, gənc mütəxəssislərin sosial müdafiəsinin gücləndirilməsi məsələsi prioritet təşkil edir.**

Hər il gənc işçilərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Beynəlxalq Əmək Təşkilatının (BƏT) tədbirlərində Yaponiyanın Beynəlxalq Əmək Fondunda, Litvada yerləşən BHİK-in gənclərin yay məktəbində AHİK-in nümayəndələrinin iştirakını təmin edirik. Artıq 6 ildir, hər yay Bakı şəhərində AHİK Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası və Beynəlxalq Əmək Təşkilatı ilə birgə gənclərin məşğulluğu, onların həmkarlar ittifaqına cəlbi mövzusunda tədbirlər keçirir.

**Bu il də gənclərlə bağlı bir çox layihəmiz, planlarımız var. Məsələn, bu ildən AƏSMA-da gənc həmkarlar ittifaqı liderləri üçün təşkil olunan kurslarda Gənclər Şurası üzvlərinin ekspert qismində iştirakını təmin edəcəyik. Üzv təşkilatların gənclər şuralarının gördüyü işlərlə bağlı rüblük məlumat alıb, onlara əməli və maarifləndirici yardım göstərəcəyik. BHİK, BƏT və AHİK-in Bakı şəhərində təşkil etdiyi seminar-konfranslar davam edəcək.**

**Tural SÜLEYMANOV,**
**AHİK-in Gənclər Şurasının sədri**

# İnflyasiya insanların həyat səviyyəsinə təsir edir



**Böyük Britaniyada keçən ilin dekabr ayında qida və geyim məhsullarının qiymətlərinin bahalaşmasından sonra inflyasiya 5,4 faizə yüksəlib ( son 30 il ərzində ən yüksək səviyyə). Bu, insanların həyat səviyyəsinin daha da ağırlaşmasına təsir göstərir.**

Ölkədəki əsas banklar istehlak qiymətləri indeksinin aprel ayına qədər 6 faizə yüksələcəyini gözləyir, bəzi analitiklər isə hökumətin artan istilik xərclərini cilovlamaq üçün enerji sektoruna milyardlarla funt-sterlinq sərmayə qoymağa qərar vermədiyi halda, bunun 7 faizə çatacağını proqnozlaşdırır.

**Enerji tənzimləyicisi "Ofgem" növbəti iki həftə ərzində elektrik enerjisi ödənişlərində qiymət artımlarını elan etməyə hazırlaşır. Həmkarlar ittifaqları milyonlarla aztəminatlı işçinin yaşayış xərcləri böhranından zərər görəcəyindən narazıdır.**

Minlərlə ictimai xidmət işçisini təmsil edən "Unison"un Baş katibi Kristina Makeni hökumətin maaş artımını tənzimləmək üçün qərarlarını yenidən nəzərdən keçirməli olacağını söylədi.

Hökumət mövcud məvacibləri artırmalıdır ki, maaşlar sürətlə artan qiymətlərlə ayaqlaşa bilsin.

Onsuz da minlərlə işçi çatışmazlığı olan səhiyyə və qayğı xidmətləri, çox güman ki, ən çox ziyana uğrayacaq. İşçilər COVID peyvəndi tələb olunmayan daha gəlirli, daha az stresli iş yerləri axtaracaqlar.

**Beynəlxalq**

**Yanvarın 24-də Polşanın ən böyük avtobus zavodu olan "Solaris Bus & Coach"da müddətsiz ümumi tətil başlayıb. Etiraz aksiyasını iki nüfuzlu təşkilat təşkil edib (Ümumpolşa Həmkarlar İttifaqları Sazişinin "Həmrəylik" və "Əmək Konfederasiyası").**



Xatırladaq ki, ötən ilin sentyabrından müəssisədə kollektiv əmək mübahisəsi davam etsə də, tərəflər razılığa gələ bilməyib. Bu səbəbdən həmkarlar ittifaqları tətil referendumu keçirib və bu referendumda əməkhaqqı hüququna malik işçilərin 51,7 faizi iştirak edib. Rəyi soruşulanların 93 faizi etiraz aksiyasının keçirilməsinin tərəfdarı olub.

# Etiraz aksiyası keçirilir

"Bu, şübhəsiz ki, bizim tərəfimizdən sarsıdıcı zərbədir. Referendumun nəticəsi bizə hərəkət etmək hüququ verir. Hakimiyyət güzəştə getməkdən və əmək kollektivinin maaşını artırmaqdan imtina etdi, buna görə də yanvarın 24-də səhər saat 6-da biz tam olaraq lazım olan qədər davam edəcək tətilə başladıq", - deyə "Həmrəylik" həmkarlar ittifaqının bəyanatında deyilir.

**"Əmək Konfederasiyası" nümayəndələrinin sözlərinə görə, baş verənlərə görə yalnız "Solaris Bus & Coach" şirkətinin idarə heyəti tam məsuliyyət daşıyır. Həmkarlar ittifaqı assosiasiyaları maaşların ayda 180 avro artırılmasına cəhd edir. Çətin danışıqlardan sonra zavodun rəhbərliyi maaşı artırmağa razı oldu. Lakin bu artım 90 avroya qədərdir və həm də, yalnız bir qrup insana şamil olunacaq. Həmkarlar ittifaqları idarə heyətinin münaqişəni ən uyğun olmayan şəkildə həll etməyə çalışmasından hiddətlənir. Keçən həftə zavodda 2022-ci ilin yanvarından maaşların 5 faiz (yəni 60 avro) artacağı barədə məlumat yayıldı. Halbuki üç peşəkar qrup cəmi 17 avro, ustalar isə 45 avrodan çox artım almamışlar. Bütün bunlar isə işçilərin qəzəbinə səbəb olub.**

**Materialları hazırladı: Azər MUSTAFAYEV**

ülfat
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
WWW.ULFET-AZ.COM
Son səhifə
CÜMƏ AXŞAMI, 27 YANVAR 2022-ci il / № 03 (1270)


# Kiçik yaşlarında valideynləri, gənc yaşlarında isə dövlət onları saxlamaqdan imtina edir



**Valideyn himayəsində olan uşaqlar dünyanın ən xoşbəxt sakinləridir. Çünki neçə yaşı olur-olsun, hər zaman insanın valideyn qayğısına, valideyn nəvazişinə ehtiyacı olur. Ancaq, təəssüf ki, bu xoşbəxtlikdən məhrum olan yüzlərlə, minlərlə uşaq var. Məlumdur ki, bəzi uşaqların çoxunu valideynləri ya doğulduğu gün atır, ya da imkansızlıq ucbatından uşaq evlərinə və ya internatlara verirlər. Uşaq evlərində, internatlarda kimsəsiz və ya müəyyən müddətə verilmiş uşaqlara yalnız 18 yaşına kimi baxılır, onlara təhsil, tərbiyə verilir, peşə vərdişləri öyrədilir.**

**Bəs həmin uşaqların 18 yaşı tamam olduqdan sonrakı aqibətləri necə olur?**

**Azərbaycan Uşaqlar Birliyi-Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinin rəhbəri Kəmalə Ağazadə** dedi ki, uşaq evini tərk edən uşaqlar o demək deyil ki, başlı-başına buraxılırlar: "Bilirsiniz ki, 2015-ci ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən valideyn himayəsindən məhrum gənclər üçün "Məzun evi" Sosial Müəssisəsi yaradılıb. Hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum gənclər 18 yaşı tamam olduqdan sonra bu mənzillərlə təmin olunurlar. Nəzərə almaq lazımdır ki, uşaq evlərində böyüyən uşaqların bəzilərinin valideynlərindən biri və ya qohumları, qəyyumları olanlar var. Bu uşaqlar 18 yaşlarına çatdıqda onların yanına dönürlər və ya başqa cür desək, dönməlidirlər. Bu gənclərin arasında peşə bacarıqlarına yiyələnənlər olduqda onlar eyni zamanda məşğulluq idarələri tərəfindən işlə də təmin olunurlar".

Kəmalə xanım onu da bildirdi ki, "Məzun ev"lərində yerləşdirilən gənclərin kommunal xərcləri ilk 6 ay müddətində dövlət büdcəsi hesabına ödənilir. Bu gənclər ali və orta təhsil müəssisələrində təhsil alırlarsa, onların mənzil-kommunal xərclərini 23 yaşlarına qədər dövlət öz üzərinə götürür.

**Təhsil üzrə ekspert Kamran Əsədov statistikaya toxunaraq bildirdi ki, rəsmi məlumatlara görə, hazırda ölkəmizdə ümumilikdə 65 uşaq müəssisəsi (internat, uşaq və körpələr evi) fəaliyyət göstərir. Həmin müəssisələrdə valideyn himayəsindən məhrum olan 21 min uşaq tərbiyə alır: "Kimsəsiz uşaqlarla bağlı indi ölkəmizdə ən böyük problem 18 yaşdan sonra onların bu müəssisələrdən məcburən uzaqlaşdırılması və sonrakı talelərinin diqqətdən kənarda qalmasıdır. Bir sözlə, kiçik yaşlarında valideynləri, gənc yaşlarında isə dövlət onları saxlamaqdan, yuva verməkdən imtina edir.**

Qeyd edim ki, mövcud qanunvericiliyə əsasən, Təhsil Nazirliyi internat məktəbləri və internat tipli müəssisələrdə yaşayan uşaqların məzun olanadək təhsili və tərbiyəsi ilə məşğul olur. Təhsilini davam etdirməyə gedən və ya işə düzələn internat müəssisələrinin məzunlarının Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş miqdarda təminat almaq hüququ var. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanuna əsasən, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər dövlət, bələdiyyə və özəl ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Bu uşaqlar övladlığa götürüldükdə də bu hüquqları saxlanılır. Bundan başqa, onların arasından olan şəxslərə tam dövlət təminatından əlavə, həmin təhsil müəssisəsində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində müəyyən edilmiş təqaüdün iki mislindən az olmayan miqdarda təqaüd verilir, habelə istehsalat təhsili və istehsalat təcrübəsi dövründə yüz faiz əməkhaqqı alırlar. Hətta onların təhsil aldıqları müddət ərzində dərslik və dərs ləvazimatları alınması üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada və miqdarda müavinət də verilir".

K.Əsədov xarici təcrübəyə də istinad etdi. Dedi ki, Avropa ölkələrində internat müəssisələri demək olar ki, ləğv olunub. Belə ki, İtaliyada və Skandinaviya ölkələrində hətta əlilliyi olan uşaqlar üçün də internat məktəbləri yoxdur. ABŞ-da isə Foster adlanan tərbiyə sistemi yaradılıb. Sistemın əsas məğzi uşağın ailədə yaşayıb və tərbiyə almaq hüququnun təmin edilməsindədir: "Hər hansı səbəb üzündən "doğma" valideynləri tərəfindən ailədə tərbiyələnmədən məhrum edilmiş uşaqlar Foster tərbiyəçilərin ailələrinə yerləşdirilir. Bunlar əvvəlcədən peşəkar hazırlıq keçmiş və dövlət tərəfindən uşaq üçün maddi yardım, bəzi hallarda isə əməkhaqqı ilə təmin edilən insanlardır. Bu model Böyük Britaniya, Avstriya, Yeni Zelandiya və Türkiyədə də tətbiq olunur. Dövlət himayədar ailələrə aylıq əməkhaqqı verir. Misal üçün qeyd edək ki, Ukraynada alternativ qayğı əsasında ailələrə verilmiş uşaqlara görə hər ay 300 ABŞ dolları ödənilir. Litvada övladlığa götürülən uşağa görə ailəyə birdəfəlik 290 avro məbləğində vəsait verilir. Bundan başqa, bu uşaqlara görə hər bir ailəyə aylıq əsaslarda da ayrıca vəsait ayrılır".

**Uşaq Hüquqlarının Müdafiəsi Liqasının sədri Yusif Bəkirov məsələyə münasibət bildirərkən dedi ki, bu uşaqlarla bağlı "dövlət nə etməlidir?" ayrı məsələdir, hazırda "real vəziyyət nədir?" isə tamam ayrı məsələdir: "Gəlin biz reallıqdan danışaq. Kimsəsiz uşaqlarla bağlı vəziyyət hazırda çox acınacaqlıdır. Oğlanlar 18 yaşına çatdıqda ya əsgər gedir, ya da işləyir. Bütün bunlar olmadıqda isə, elə internatda, uşaq evlərində yaşamağa davam edirlər. Qızlarda isə vəziyyət deyərdim daha ağırdır. Ümumiyyətlə, mən sizə deyim, onlar orda çarəsizlikdən qalırlar: işləri yox, qalacaq evləri yox, ailələri yox. Harda yaşamalıdırlar? Məcburdurlar orda qalmağa. İstisnalar var, təbii ki. Müəyyən müddətdən sonra evlənənlər də olur, o zaman onlar artıq ordan ayrılıb özlərinə həyat qururlar. Digər tərəfdən, təhsil alanlar da var ki, həmin uşaqların hamısı sosial evlərlə təmin olunmur. Bu kateqoriyadan olan yeniyetmələr də universiteti bitirənə kimi orda yaşamaq məcburiyyətində qalırlar. Ancaq digər halda, özünüz düşünün, həmişəlik orda qala bilməzlər axı. Ona görə də məcbur olurlar həyatda qalmaq üçün qarşılarına çıxan "hər işdə" çalışmağa. Budur reallıq. "Dövlət nə etməlidir?" məsələsinə gəlincə isə, gəlin mən bunu sizə misal ilə izah edim. Rusiyada bu uşaqların böyük qismi evlə təmin olunur və kommunal xidmətlərdən tamamilə azaddırlar. Təbii ki, şərtlər əsasında: onlar o evi nə sata bilər, nə də bağışlaya bilər. Orda qalmaq istəmədiyi təqdirdə isə, ev dövlətin nəzdində qalır. Bəli, bizdə də sosial evlər var, tikilir. Ancaq düşünürəm ki, bu layihə daha geniş bir vüsət alarsa, bu gün valideynləri tərəfindən tərk edilən, yarımçıq böyüyən həmin uşaqlara heç olmasa dövlət arxa durub isti qucaq açar".**

**Aliyə SƏMƏDOVA**



# MÜKAFATLAR TƏQDİM OLUNDU

**Bu gün Azərbaycan gəncləri yeni, müasir və müstəqil ölkənin qurulmasında fəal iştirak edirlər. Gələcəyimizin etibarlı təminatı peşəkar kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Hazırda respublikadakı həmkarlar ittifaqı üzvlərinin üçdəbiri 35 yaşınadək olan gənclərdir. Belə bir qüvvənin təşkilatın işində yaxından iştirakı vacib məsələlərdən biridir. Həmkarlar ittifaqları mövcud struktur çərçivəsində gənclərin fəallığını təmin etməyə, rəhbər orqanlarda təmsil olunmalarına şərait yaratmağa, işləyən və təhsil alan gənclərin hüquq və mənafelərinin qorunmasına çalışır.**

Bu ilin yanvar ayının 12-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən təsis edilən "İlin peşəkar gənci" müsabiqəsinin qalibləri olan həmkarlar ittifaqı üzvləri ilə görüş keçirilmişdir. Görüşdə "Kənd-Qida-İş" Hİ Federasiyasının sədri Tofiq Quliyev müsabiqə qaliblərini təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulamışdır. Və bu gün Respublika Prezidenti İlham Əliyevin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlarından bəhs etmişdir.

Sonra sədr T.Quliyev Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin komandanlığı altında aparılmış 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərdə yenidənqurma işlərinin gedişi və bu prosesdə gənclərin iştirakı barədə məlumat vermişdir.

**Daha sonra Federasiya sədri müsabiqə qaliblərini tədbir iştirakçılarına təqdim etmişdir:**

*Kənd Təsərrüfatı Nazirliyi Aparatının İnsan Resursları şöbəsinin müdir müavini Süleymanov İlham Məmməd oğlu,*

*Kənd Təsərrüfatı Nazirliyi Aparatının İnsan Resursları şöbəsinin Təlim və inkişaf sektorunun müdiri Atayev Elnur Allahverdi oğlu,*

*"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin Elm, Layihə və Xarici Əlaqələr şöbəsinin aparıcı məsləhətşisı Məmmədov Gündüz Tahir oğlu,*

*"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin Su Anbarı və Hidroqovşaqların İstismarı sektorunun baş məsləhətçisi Ağayev Sarvan Şükür oğlu,*

*"Azərsun Holdinq" Şirkətlər Qrupunun "Xəyal Adası" MMC-nin Təsis xidmətləri şöbəsinin müdiri Seyfullayev Fuad Valeh oğlu.*

**Bu gənclərə AHİK-in Fəxri diplomu, döş nişanı, vəsiqələr və Federasiyanın pul mükafatı təqdim olunmuşdur.**

# Hüquq məsləhətxanası

**On dörd yaşınadək olan yetkinlik yaşına çatmayanın törətdiyi mülki hüquq pozuntusu üçün kim məsuliyyət daşıyır?**

**Məmməd CƏBİYEV, Yevlax rayonu.**

- Mülki Məcəllənin 1106-cı maddəsinə əsasən,on dörd yaşınadək olan yetkinlik yaşına çatmayanın (azyaşlının) törətdiyi mülki hüquq pozuntusu nəticəsində dəyən zərər üçün onun valideynləri (övladlığa götürənlər) və ya qəyyumu, zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr, məsuliyyət daşıyırlar.

Əgər qəyyumluğa möhtac azyaşlı müvafiq tərbiyə, müalicə müəssisəsində və ya qanuna görə onun qəyyumu olan digər oxşar müəssisədə olmuşdursa, həmin müəssisə azyaşlının vurduğu zərərin əvəzini, əgər zərərin müəssisənin təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, ödəməyə borcludur.

Əgər azyaşlı təhsil, tərbiyə, müalicə müəssisəsinin və ya ona nəzarət etməyə borclu olan digər müəssisənin və ya müqavilə əsasında nəzarət edən şəxsin nəzarəti altında olduğu dövrdə zərər vurmuşdursa, həmin müəssisə və ya şəxs, zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, zərər üçün məsuliyyət daşıyır.

Valideynlərin (övladlığa götürənlərin), qəyyumların, təhsil, tərbiyə, müalicə müəssisələrinin və digər müəssisələrin azyaşlının vurduğu zərərin əvəzini ödəmək vəzifəsinə azyaşlı yetkinlik yaşına çatdıqda və ya zərərin əvəzini ödəmək üçün yetərli əmlak əldə etdikdə xitam verilmir.

Əgər valideynlər (övladlığa götürənlər), qəyyumlar ölmüşlərsə və ya zərərçəkənin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzini ödəmək üçün yetərli vəsaitə malik deyildirlərsə, tam fəaliyyət qabiliyyətli olmuş zərərvuranın isə bu cür vəsaiti vardırsa, məhkəmə zərərçəkənin və zərərvuranın əmlak vəziyyətini, habelə digər halları nəzərə almaqla, zərərin əvəzinin tamamilə və ya qismən zərərvuranın özünün hesabına ödənilməsi barədə qərar qəbul edə bilər.

**Kim şəhid ailə üzvü hesab edilir?**

**Fərid KƏRİMOV, Yevlax rayonu.**

- Qanunvericiliyə əsasən, şəhid ailə üzvləri aşağıdakılar hesab olunurlar:

-Şəhidin arvadı (əri);

- validеynləri;

- 18 yaşına çatmamış uşaqları, 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladları;

- qardaşları və bacıları - uşaq evlərində tərbiyə olunanlar;

- babalar və nənələr, qanunla onları saxlayan şəxs yoxdursa;

Onu da qeyd etmək lazımdır ki,şəhidin 18 yaşına çatmamış uşaqları, 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladları, uşaq evlərində tərbiyə olunan qardaşları və bacıları əyani təhsil müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında təhsil aldıqda 23 yaşa çatanadək ailə üzvü hesab edilirlər.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi AHİK sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə əzizi
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil İşçiləri Azad HİRK-in rəhbərliyi və aparat işçiləri RK-nın hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil İşçiləri Azad Hİ Tovuz Rayon Komitəsinin sədri Flora Pənahova sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Salyan Rayon Komitəsinin sədri Yaqut Ələsgərova sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Səbail Rayon Komitəsinin sədri Mükafat Abbasov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Xəzər Rayon Komitəsinin sədri Həzərxan Əbilov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Şəmkir Rayon Komitəsinin sədri Həsən İsmayılov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Xaçmaz Rayon Komitəsinin sədri Vaqif İsrafilov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil İşçiləri Azad Hİ Sabirabad Rayon Komitəsinin sədri Seyidhüseyn Hüseynov sahə Hİ Respublika Komitəsinin hüquqşünası Sübut Əsədova qardaşı
**NADİR ƏSƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7491
Sifariş: 271
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
**Sərbəst qiymət**